# HƏYATA ÜRƏYİ İLƏ BAXAN İNSAN

Müxtəlif məkan və zamanlarda dünyaya gələn adamlar həyatın sonrakı dönüş və döngələrində rastlaşıb ünsiyyət bağlayır, doğmalaşır, dostlaşırlar. Etiraf edək ki, çoxumuzun təzə tanışlıqda bəxti gətirmir: qarşı tərəfin çörək dostu olduğu aşkara çıxır, münasibət saxta və ötəri olur; salam-əleyk bağda ərik qurtarana qədər çəkir... Həyat faktları təsdiq edir ki, ömrü zəhmət dünyasından keçənlər, uğurları canı, qanı, bilik və səmimiyyəti ilə qazanırlar, nəfsitox və mərdtəbiətlilər münasibətlərdə saf, dəqiq və sabitqədəm olurlar. Belə insanlarla ayaqüstü beş dəqiqəlik söhbət belə sonralar xoş xatirələrə çevrilir.

Ulularımız "yaxşılıq toxumu əkən yaxşılıq dərər", - demişlər. Təəssüf ki, hamı yaxşılıq toxumu əkmir. Ona görə də yaltaqlar, xəbislər, xəsislər və şöhrətpərəstlər daha çoxdur. Lakin dünyanı yaxşı adamlar yaşadır. Daha doğrusu, dünya xeyirxah adamların çiyinlərindədir. Belə adamlar varmı? Bəli, olub, var və olacaq.

Bu kiçik yazımızda el-oba arasında yaxşı ad qazanmış, bu yaxınlarda dünyasını dəyişmiş, çalışdığı sahələrdə həmişə öndə olmuş, bütün işlərdə heç vaxt öz mənafeyini düşünməyən mərd və xeyirxah bir eloğlumuzdan söhbət açacağıq...

Şərin xeyri, pisin yaxşını, oğrunun doğrunu üstələdiyi və təzadlarla zəngin olan XXI əsrdə bu ləyaqətli, kişi ömrü yaşayan insan kimdir? Tərəddüd etmədən onu tanıyanların hamısı bir ağızdan deyərdilər ki, o insan həyata ürəyi ilə baxan, doğulduğu gündən zəhmətlə yaşayan, ömrü boyu arzu və istəyinə sadiq qalan, məsul və şərəfli həyat yolu keçən böyük hörmət qazanmış **Zahid Əkbər oğlu Əkbərovdur.**

Gözəl insan, müdrik el ağsaqqalı, dövrünün vətənpərvər ziyalısı, cəfakeş valideyni və sədaqətli dostu idi hamının Zahid Əkbərov. Doğulduğu vaxtdan çoxsaylı çətinliklərlə üzləşmişdi. Sovet-Fin müharibəsi başlayanda - 1939-cu ildə Zahidin 3 yaşı olardı. Atası Əkbər müharibəyə getmişdi. O anası Sürəyya xanımın himayəsində idi. Hamı bu illərdə çətinliklərlə yaşayırdı. Ailədə də çətinliklər günbəgün artırdı. Əkbər kişinin qoyub getdiyi ərzaqlar qurtarmışdı. Əsgər ailələrinə təqaüd verilməsinə baxmayaraq, bu, üç nəfərlik ailəyə çatmırdı. İşləmək lazım idi. Sürəyya xanım da iki azyaşlı övladını bir-birinin, Yaradanın ümidinə buraxıb fermada - kolxozda sağıcı işləməyə başladı. Çətinliklərə baxmayaraq, ailə ümidlə yaşayırdı. Uşaqlar atalarının geri dönəcəyi günü gözləyirdilər. Bu vaxt İkinci Dünya müharibəsi başladı... Əkbərdən soraq yox idi.




Nəhayət, 1943-cü ildə son məktubu - "qara kağızı" Ruminiyadan gəldi. Ailənin son ümidi də belə qırıldı. Artıq Zahid məktəbli idi, yaxşı oxumaqla bərabər, anası Sürəyya xanım istəməsə də, boş vaxtlarında ona köməklik edirdi. Dərslərini əla oxumaqla bərabər kolxozun buzovlarını otarırdı...

Yeddiillik məktəbi əlaçılıqla bitirdiyi üçün Zahid 1953-cü ildə Bakı Maliyyə Kredit Texnikumuna imtahansız qəbul olunur. 1956-cı ildə texnikumu "əla" qiymətlərlə bitirir və K.Marks adına Xalq Təsərrüfatı İnstitutuna imtahansız qəbul olunma şansı əldə edir. Amma hələ də kolxozda sağıcı işləyən ana, özündən balaca məktəbli qardaş çətinliklə dolanırdılar, köməyə ehtiyacları var idi. Odur ki, Zahid rayona qayıdır və İsmayıllı rayon Maliyyə Şöbəsində əmək fəaliyyətinə başlayır, 18 avqust 1956-cı ildə əmək kitabına ilk iş əmri yazılır. Gənc olmasına baxmayaraq, Zahid Əkbərov çox məsuliyyətli, intizamlı, işini bilən idi. Bilmədiyini öyrənməyə böyük maraq göstərirdi. Zahidin fədakarlıq və işgüzarlığı hamının diqqətində olduğundan iki il sonra maliyyə şöbəsində Həmkarlar İttifaqı yerli Komitəsinin sədri seçilir və 1973-cü ilə kimi bu vəzifəni layiqincə icra edir.

Zahid Əkbərov ləyaqətlə işinin öhdəsindən gəlir, vəzifəyə, var-dövlətə, şan-şöhrətə uymur. Odur ki, 1964-cü ildə Respublika Həmkarlar İttifaqı Mərkəzi Şurasının qərarı ilə Moskva Ali Həmkarlar Hərəkatı Məktəbinə, qiyabi oxumağa göndərilir. Burada da tələbə kimi üzərinə düşən vəzifələri layiqincə yeri-

nə yetirir. Oxuduğu müddətdə öz istedadı, yüksək zəkası, mülayim davranışı ilə müəllimlərin və tələbə yoldaşlarının sevimlisinə çervilir.

Zahid Əkbər oğlu Əkbərovun on bir il Dövlət Əmək Komitəsinin İsmayıllı rayonu üzrə müvəkkili, bir il Rayon İcraiyyə Komitəsində təşkilat şöbəsinin müdiri, yeddi il İsmayıllı Rayon İctimai Təminat Şöbəsinin müdiri vəzifələrində şərəflə, vicdanla çalışıb. Harada işləməsindən asılı olmayaraq, həmkarlar təşkilatındakı işini davam etdirib. Qeyd olunan bütün uğurlar və nailiyyətlərlə yanaşı ailcənab, əməksevər, ləyaqətli, dürüst və eyni zamanda tələbkarlığı ilə seçilən, yüksək rəhbərlik qabiliyyətinə malik olması da hər kəsə məlum idi. Ölkəmizin inkişafı uğrunda xidmətlərindən hamı böyük qürur hissi ilə danışır, yaxşı insan olduğunu qeyd edirlər.

Z. Əkbərovun rayonun ictimai-siyasi həyatında böyük rolu olub, el-obasının, torpağının təəssübünü çəkib həmişə. Dövlətin də, sırasından çıxdığı xalqının da etimadını doğruldub. Təhsilinin də daim qayğısına qalıb. Daim oxuyub, öyrənib, qiyabi olaraq arzusunda olduğu Azərbaycan Xalq Təsərrüfatı İnstitunu bitirərək iqtisadçı ixtisasına yiyələnib.

O, mənalı həyatını xalqına, millətinə, peşəsinə xidmət etməyə sərf edib, alicənablığı, xeyirxahlığı ilə seçilib həmişə. Çalışıdığı bütün dövrlərdə dövlət işi ilə yanaşı ictimai işlərdə fəallıq göstərib. Rayon Partiya Komitəsində plenum üzvü, Rayon Xalq Nəzarəti Komitəsində təşkilat şöbəsinin müdiri, Məhkəmədə xalq iclasçısı, İsmayıllı Dairə Seçki Komissiyasında katib kimi ən məsuliyyətli sahələrdə əməyini əsirgəməyib.

Zəhmətdən, işləməkdən yorulmayan, mədəniyyəti və işgüzarlığı ilə seçilən, fərqlənən Zahid Əkbərov 36 il Dövlət İdarəetmə orqanlarında, 24 il isə Dövlət İdarələri və İctimai Xidmət İşləri Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsinin sədri vəzifəsində çalışıb. Amma heç vaxt nə vəzifəsindən, nə ətrafında olan dostlarından umacaqlı olmayıb, öz xeyrinə onlardan istifadə etməyib. Hamıya özü köməkçi olub. Hamıya əl tutub, yardım edib. Həmkarlar təşkilatının əsas məqsədlərini yerinə yetirib, iş yerlərində təhlükəsizliklə məşğul olan insanlardan işçilərin vaxtlı-vaxtında təlimatlandırılmalarını tələb edib, yol göstərib... Nəzarət edib...

Dəyərli insan, təcrübəli həmkar, gözəllik və təbiət vurğunu olan, kiçikdən tutmuş, böyüyədək hər zaman hamının "Sabahınız xeyir, Zahid əmi!", "Salam, Zahid dayı", "Hər vaxtınız xeyir, Zahid müəllim" sözlərilə yad etdikləri bu insanı xatırlayanda, onun ürəklərdə qazandığı "sağol"ları düşünəndə yadıma xalq şairi Məmməd Rahimin bu misraları düşür.

**Lətifə Əliyeva, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Tərəqqi" medallı, İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru:**



-Həyata ən gözəl qazanc ruhən xatirələrdə əbədi yaşamaqdır. Belə həmişəyaşar şəxslərdən idi Zahid Əkbər oğlu Əkbərov. 81 yaşında olanda onun haqqında "İsmayıllı xəbərləri" qəzetində "Nağıllaşan ömür" adlı məqalə ilə çıxış etmişəm. Onun ömür yoluna çıraq tutaraq, xüsusi keyfiyyətlərini göstərmişəm. Onun həyatını bir qəzet səhifəsində əks etməklə qurtaran deyil. O, çətin anların dostu idi. Zahid müəllimin işıqlı siması, ziyalı görkəmi, şirinqanlılığı, mehriban ünsiyyəti, prinsipiallığı, intellekti, mənalı zarafatları birər-birər gəlib indi gözümün önündə durur. Bu gün onun yoxluğu özünü açıq-aydın biruzə verir. Onun rəhbərlik etdiyi Həmkarlar İttifaqının üzvləri, dostları, yaxınları heç vaxt unutmayacaqlar və böyük ehtiramla xatırlayacaqlar. Mənim Zahid müəllimlə bağlı təəssüratlarım zəngindir. Dünya fanidir. Onu şirinləşdirən və rəğbətli edən işıqlı insanların əməlləridir. Zahid müəllim belə insanlardan idi. Ona görə də o həmişə yaddaşlarda yaşayacaq.

Allah Zahid müəllimə rəhmət etsin, qəbri nurla dolsun!

**Məmmədxan Muradəliyev, ağsaqqal, təqaüdçü:**



- Zahid kişi bilikli və savadlı, zəngin təcrübəyə, məntiqli düşüncəyə malik, Allahın bəndələrini - onların tələbatlarını vaxtında duyan, böyük ürək sahibi idi. Belə insanlar yüz ildə bir dəfə yetişir və yaxud da heç yox... Onun sifətindən nur tökülürdü. Yaxşı ata, səmimi baba, qohumcanlı, sədaqətli dost və müdrik ağsaqqal idi. Qəlbən təmiz, mənən zəngin, xasiyyətcə çox həlim adam idi. O, bu elə, bu təbiətə, bu varlığa, bu gözəlliyə, bu yerə-göyə o qədər həvəslə, inamla, ümidlə baxırdı ki, elə bil bütün həyatını onlarda görürdü. O, əxlaq cəhətdən, ədəb-ərkan cəhətdən, xeyirxahlıq sarıdan o qədər zəngin idi ki, deyirdin ki bu adam dünyadan köçəndə özü ilə nə qədər xeyir-dua, alqış, xoş söz-söhbət apardı?! Zahid eldən gedən insan oldu. Allah ona, rəhmət eləsin.

**Murad Məhərrəmov, əmək veteranı, İsmayıllı RİH-nin sabiq əməkdaşı:**



-Zahid Əkbərov mənim üçün yaddaşımda mərd, xeyirxah, cəsarətli və təvazökar bir insan kimi qalır. Onun evi, iş yeri hər bir insan üçün inam ocağı idi. Çətinliyə düşən, köməyə ehtiyacı olan hər bir adam bu ocağa üz tuturdu. Rayonda çalışdığım vaxt onunla tez-tez salamlaşar, istirahət günlərində gəzməyə çıxardıq. Söhbətimiz elmi məcraya yönələrdi. O, həqiqətən, məntiqli nitqə, səbrli, təmkinli, tədbirli xarakterə dərin hörmətə və məhəbbətə malik bir insan idi. Zahid müəllimin mülayimliyi içərisində lazım gəldikdə qətilik, hiss olunmayan sərtlik, "yox!" - demək bacarığı, məsələlərin müzakirəsində prinsipial mövqe seçmə, haqqı, ədaləti müdafiəetmə qabiliyyəti var idi. O, tapşırılan işlərə ciddi və məsuliyyətlə yanaşırdı. Həm də qayğıkeş və mehriban, övladlarına böyük məhəbbət bəsləyən bir valideyn idi.

Onun nurlu çöhrəsi, əziz xatirəsi heç vaxt unudulan deyil. Çünki, "Böyük təbiətlər yaranır az-az" (S.Vurğun).

Allah Zahid dostumuzun ruhunu şad etsin!

**Vidadi Məmmədov, İsmayılıl RİH-i yanınında İctimai Şuranın sədri:**



-Belə bir insan şəxsən gördüyüm və tanıdığım üçün sevinirəm. Düşünürəm ki, zahirən Zahid kişi çox təvazökar, sadə qəlbli, şux zarafatları ilə hamının ürəyində sevinc işığı yandıran, ovuclarından ömrünün zəhmət cığırları keçən şərəfli və keşməkeşli ömür sürən, halallığın zirvəsində yer tutmuş ağsaqqal idi. Örnək olan ömür yaşayırdı. Ömrünün hər ilməsini faydalı işlərə hördü. Zahid müəllim həyatı yaxşı bilirdi. Həyat onu uşaqlıqdan halal zəhmətə öyrətmişdi. Həyatın hər üzünü görmüşdü. Məna və mahiyyətini dərk etmişdi. Ona görə həmişə səmərəli gün keçirməyə, alnıaçıq olmağa, dostlarının sevimlisi olaraq qalmağa çalışıb. Zahid müəllim müxtəlif tədbirlərdə sanballı çıxışları ilə də fərqlənirdi. O, hər suala tutarlı arqumentlərlə əsaslandırılmış cavablar verərdi. Əsl ziyalı idi. Hamıya doğma, əziz idi.

Hazırda Zahid kişi aramızda yoxdur. Ruhu şad olsun, Allah rəhmət eləsin.

***Ey könül, fürsəti bada vermə gəl,***
***Gün keçir, ay ötür, il yaman gedir.***
***Çalış ki, dünyadan köç eyləyəndə...***
***Desinlər, nə gözəl bir insan gedir?!***

Xeyirxah insan, qayğıkeş, müdrik el ağsaqqalı, xalqın sevimlisi Zahid Əkbərov artıq aramızda yoxdur. Amma onun yaratdığı, qurduğu güllü-çiçəkli həyəti, hər səhər İsmayıllı RayonTəhsil Şöbəsi binasının dördüncü mərtəbəsinə, iş yerinə qalxarkən onu görənlərin gözləri önündə parlaq, gülərüz surət canlanır. Elə düşünürsən ki, varlı-hallı, abır-həyalı, hamıya kömək əli uzadan bu insan indicə yanımızdan ötüb keçəcək, salamlaşacaqdır.

Bəli, o kəs xoşbəxtdir ki, onun haqqında dünən də yaxşı deyiblər, bu gün də deyirlər, sabah da deyəcəklər. Necə ki, Zahid Əkbər oğlu Əkbərov haqqında deyirlər!

Çalışdığı illər ərzində işinin mükafatı olaraq çoxlu tərifnamələr, təşəkkürlər, medallar, hətta Beynəlxalq Həmkarlar İttifaqı Federasiyasının medalını alıb, ancaq ən böyük mükafatı xalqın ona bəslədiyi hörmət və ehtiramdır. Cavanlığından da həmkəndliləri, kollektiv üzvləri arasında ağsaqqal kimi qəbul edilib. Sözü eşidilib, məsləhətləri icra olunub.

Zahid Əkbərov böyük bir şəcərənin başçısı olub. O, beş övlada, səkkiz nəvəyə, üç nəticəyə də ailənin ağsaqqalı kimi şərəflə böyükülük edib. Balaları, nəvələri hamısı ali təhsillidirlər, dövlətə, dövlətçiliyə sadiq insanlardırlar...

Dünyanı yaxşı adamlar, ürəyi ilə duyub görənlər yaşadır. Belə adamları Vətən, el- oba heç vaxt unutmur. Onlar dastanlara, nağıllara çevrilirlər. Mərhum Zahid Əkbərov da belə insanlardan olduğu üçün adına şeirlər, kitablar yazılacaq, nəğmələr qoşulacaq...

İstər sağlığında, istərsə də vəfatından sonra səni duyub, sevib, borcundan çıxmaq istəyənlər nə qədər olub, Zahid Əkbərov?!

Sən cismən bizdən ayrılsanız da, mənən həmişə bizimləsiniz. Qoy bizi yaradan uca Tanrı həmişə sizi sevənləri, balalarını, nəvələrini, nəticələrini qorusun!

Məzarın nurlu, yerin behişt, axirət dünyan cənnət olsun. Əlvida, Zahid Əkbərov!!! Orda görüşənədək!!!

***Hacıməmməd MƏMMƏDOV,***
***Eldar ƏLİYEV***